**“Əhalinin iqtisadi fəallığı statistik müayinəsinin məqsədlərinin müzakirə olunması”na dair yüksək səviyyəli görüş haqqında**



Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Beynəlxalq Əmək Təşkilatının (BƏT) əməkdaşlığı çərçivəsində 2014-cü il oktyabrın 23-də Dövlət Statistika Komitəsində “Əhalinin iqtisadi fəallığı (ƏİF) müayinəsinin məqsədlərinin müzakirə olunması”na dair yüksək səviyyəli görüş təşkil edilmişdir. Görüşdə müvafiq dövlət orqanlarından, universitet və elmi-tədqiqat institutlarından, qeyri-dövlət təşkilatlarından və Beynəlxalq Əmək Təşkilatından olmaqla 30 mütəxəssis iştirak etmişdir.

Tədbirin əsas məqsədi 2013-cü ilin oktyabrında Cenevrədə keçirilmiş Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransında qəbul edilmiş əmək fəaliyyəti, məşğulluq və işçi qüvvəsindən tam istifadə olunmamasına dair yeni beynəlxalq statistik tövsiyələrin və layiqli əməyin ölçülməsi ilə bağlı məlumatların müzakirəsi, əmək statistikası ilə bağlı Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransından irəli gələn məsələlərin ƏİF statistik müayinəsində tətbiq olunma imkanları və Azərbaycanda layiqli əməyin cari vəziyyəti ilə bağlı müzakirələrin aparılması, ƏİF müayinəsinin sorğu anketinin təkmilləşdirilməsi, müayinənin coğrafi əhatəliliyi, əhatə olunan şəxslər və digər məsələlərin müzakirəsindən ibarət olmuşdur.



Tədbirin açılışında Dövlət Statistika Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Həmkarlar İttifaqları Konfederasiyasının və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının yüksək səviyyəli nümayəndələri tədbirin məqsədi, gözləntilər, müzakirə olunacaq məsələlərin aktuallığı və görüşdə müzakirə olunacaq məsələlər haqqında məlumat verdilər. 5 sessiyadan ibarət təşkil olunmuş tədbirin ilk sessiyasında BƏT-in Statistika departamentinin mütəxəssisi xanım Monica Castillo tərəfindən “ƏİF statistik müayinəsi timsalında əmək statistikası, məşğulluq və işçi qüvvəsindən tam istifadə olunmamasına dair Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransında qəbul edilmiş Qətnamə və Layiqli əməyin qiymətləndirilməsi” mövzusunda təqdimat oldu.



İkinci sessiyada Dövlət Statistika Komitəsinin Əmək statistikası şöbəsinin müdir müavini Nemət Xuduzadə “Azərbaycanda layiqli əmək, Əhalinin iqtisadi fəallığına dair müayinə: Cari vəziyyət və perspektivlər. Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransından irəli gələn məsələlər” mövzusunda təqdimatla çıxış etdi. Hər iki təqdimatla bağlı geniş müzakirələr aparıldı.

Növbəti sessiyalarda əhalinin iqtisadi fəallığına dair statistik müayinənin real məqsədləri, onun əhatə dairəsi, ilkin göstəricilərin seçilməsi, coğrafi əhatəliliyi, yeni qəbul edilmiş standartlar və s. ilə bağlı müzakirələr aparıldı və iştirakçılar tərəfindən müvafiq təkliflər verildi.